# Azərbaycan Yazıçılar Birliyinin sədri, çox hörmətli Anara!

Azərbaycan ədəbiyyatının görkəmli siması, hörmətli Anar müəllim!

Yaş yaş üstə gəlir... Bu, sadə bir rəqəm artımıdır və ruh adamlarına şamil olunmur. Özü də ki həmin ruh adamı Anar ola!

Əsərlərini hər zaman sevə-sevə oxuduğumuz sevimli yazıçımız, hər daim yeni bir həvəslə və eşqlə yazıb-yaradan böyük sənətkar.

*"...Oğlum!*

*...Həyat belədir, oğlum, gün çıxır, göy buludlanır, yaz olur, qış olur. İnsanın ən böyük ləyaqəti ondadır ki, bütün bu istilər, soyuqlar, işıqlar, qaranlıqlar içində yolunu insan kimi keçsin..."* (Rəsul Rzanın Anara məktubundan)

....Siz o insanlıq yolunun ləyaqətli yolçusu oldunuz. Ədəbiyyatımıza, mədəniyyətimizə, o dəyərləri yaradanlara təəssübkeşliyiniz, diqqətiniz göz önündədir.

2018-ci ilin mart ayının 14-də ailə üzvləriniz və yaxın dostunuz, Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilovla Şabrana - Pirəbədilə gəlmişdiniz. İdeya müəllifi olduğunuz söz, musiqi, sənət adamları üçün yaradıcılıq mərkəzinin qərarlaşacağı yerə baxdınız, artıq təməli qoyulmuş işlərlə tanış oldunuz. Azərbaycan Respublikasının Prezidenti, millətimizin qüruru İlham Əliyevin xüsusi diqqəti və qayğısı ilə tikilib ərsəyə gələn, indi yaradıcı ziyalılarımızla yanaşı ölkə vətəndaşlarının, vətənimizə yolu düşən qonaqların sevə-sevə üz tutduğu, möhtəşəm Şabran otel-istirahət kompleksinin yerində o zaman yaxın kənddən olan sadə bir dostumuzun samovar çayını içmişdik.

O gün Sizin doğum gününüz idi. Doğum gününüzü yazıçılara böyük töhfə olan mərkəzlə tanışlıqda keçirdiniz. Həmin o günü Sizə yol yoldaşı, əslində, bələdçilik etməkdən çox məmnun olmuşdum. Sonralar da rəhbərlik etdiyiniz Birliyin üzvlərinin doya-doya dincəldiyi, yazıb-yaratdığı o məkanda bir neçə dəfə olmusunuz.

İndi o zaman samovar çayı içdiyimiz o talada ucaldılan möhtəşəm, ulduzlarının sayı bilinməyən otel kompleksinin restoranında elə ondakı kimi ailə üzvləriniz və yaxın dostlarınızla təntənəli bir gün keçirmək, təşəbbüskarı və təəssübkeşi olduğunuz möhtəşəm işdən baxıb, görüb zövq almaq, dincəlmək necə də gözəl olardı.

Elə ondakı kimi, mən də yenə sizlə yol yoldaşlığı, bələdçilik eləməkdən məmnun olardım. Əsərləri və yaratdıqları ilə nəsil-nəsil oxucunu yetişdirən Anar müəllimi canlı dinləmək, onunla eyni ortamda olmağın səadətini yaşamaq diləyi ilə bir daha təbriklər!

Hörmətlə,

***Novruz NOVRUZOV***

*Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı*